**https://doi.org/10.58225/tim.2025-3-441-445**

**S.C.Tomayev**
***magistrant, Azərbaycan Turizm və Menecment Universiteti***
***ORCİD 0009-0006-8370-8873***
***tomayev_s@mail.ru***

*Məqalə redaksiyaya daxil olub 09.09.2025*
*The article was received by editorial board on 09.09.2025*
*Статья принята к печати 09.09.2025*

# SOSİAL MÜDAFİƏ MEXANİZMLƏRİ VƏ GƏLİR BƏRABƏRSİZLİYİNİN AZALDILMASI: AZƏRBAYCAN NÜMUNƏSİ

**Xülasə**

*Məqalədə gəlir bərabərsizliyi qlobal və yerli səviyyədə əsas sosial-iqtisadi problem kimi təhlil olunur. Qeyd edilir ki, gəlirlərin qeyri-bərabər bölgüsü yoxsulluğun artmasına, sosial sabitliyin zəifləməsinə və iqtisadi inkişafın dayanıqlığının pozulmasına səbəb olur. Sosial müdafiə sistemləri – pensiyalar, müavinətlər, ünvanlı sosial yardımlar və sosial xidmətlər – gəlir bərabərsizliyini azaltmaq və həssas əhali qruplarını qorumaqda mühüm vasitədir.*

*BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri, eləcə də Dünya Bankı və ILO-nun proqramları bu sahədə beynəlxalq səyləri gücləndirir. Dünya Bankının son illərdə ayırdığı böyük maliyyə resursları sosial müdafiənin qlobal miqyasda sosial ədalətin təmin olunmasına və iqtisadi inkişafın dəstəklənməsinə xidmət etdiyini göstərir.*

*Azərbaycan nümunəsi göstərir ki, sosial müdafiə siyasəti rəqəmsal transformasiya, proaktiv xidmət mexanizmləri və DOST RİM kimi innovativ yanaşmalarla beynəlxalq səviyyədə tanınsa da, inzibati, maliyyə, sosial, qanunvericilik və qlobal risklərlə bağlı problemlər mövcuddur.*

*Tədqiqat nəticəsində müəyyən olunub ki, ünvanlı sosial yardımın dəqiq hədəflənməsi, aktiv məşğulluq proqramlarının genişləndirilməsi, regionlararası fərqlərin azaldılması, qeyri-formal məşğulluğun leqallaşdırılması və sosial xidmətlərin keyfiyyətinin yüksəldilməsi gəlir bərabərsizliyinin azaldılmasında həlledici rol oynaya bilər.*

***Açar sözlər:*** *sosial müdafiə, gəlir bərabərsizliyi, ünvanlı yardım, yoxsulluq, Azərbaycan.*

## GİRİŞ

Dünya üzrə gəlir bərabərsizliyi son illərdə əhəmiyyətli sosial və iqtisadi problem kimi tanınır. Bu baxımdan müasir dövrdə gəlir bölgüsündə ədalət və sosial bərabərlik dayanıqlı inkişafın əsas istiqamətlərindən biri hesab olunur.

Gəlirlərin qeyri-bərabər bölgüsü yoxsulluq səviyyəsinin artmasına, sosial sabitliyin zəifləməsinə və iqtisadi inkişafın dayanıqlığının pozulmasına səbəb olur. Bu problem həm sosial ədalət prinsiplərinə ziddir, həm də cəmiyyətin sosial-iqtisadi stabilliyinə təsir göstərir (Atkinson, 2015, p. 42). Sosial müdafiə sistemləri – pensiyalar, müavinətlər, ünvanlı sosial yardımlar və sosial xidmətlər – əhalinin həssas təbəqələrini qoruyaraq gəlir bərabərsizliyini azaltmaq və yoxsulluğu aradan qaldırmaq üçün əsas vasitə kimi çıxış edir (Dünya Bankı, 2023; ILO, 2022).

BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (SDG) də gəlir bərabərsizliyi problemini diqqət mərkəzində saxlayır. Xüsusilə, *SDG 1* – Yoxsulluğun aradan qaldırılması, sosial müdafiə mexanizmləri vasitəsilə yoxsul və həssas qrupların həyat səviyyəsini yüksəltməyə yönəlmişdir; *SDG 10* – Bərabərsizliyin azaldılması isə gəlirlərin ədalətli paylanması və sosial müdafiənin gücləndirilməsi ilə bərabərsizlik səviyyəsinin azalmasına xidmət edir (United Nations, 2023).

Son iki onillikdə Dünya Bankı Qrupu tərəfindən həyata keçirilən sosial müdafiə və məşğulluq proqramları 72 ölkədə 222 milyondan çox insanın həyatına müsbət təsir göstərmişdir. 2025-ci ilin aprel ayına olan məlumatlara görə, qlobal böhranların yaratdığı çağırışlara cavab olaraq Dünya

Bankı, o cümlədən Bərabərsizliklə Mübarizə üzrə İnvestisiya Aləti (BİA) vasitəsilə, sosial müdafiə həllərinin təmin edilməsi üçün ümumilikdə 29,5 milyard dollar, onlardan 15,5 milyard dollar BİA çərçivəsində maliyyələşdirmə ayırmışdır. Buda, qlobal miqyasda sosial müdafiə sistemində həm sosial ədalətin təmin olunması, həm də dayanıqlı iqtisadi inkişafın təminatçısı rolunu oynayır (World Bank, 2025).

Azərbaycan Respublikasında da həyata keçirilən sosial müdafiə siyasəti əhalinin həssas təbəqələrinin sosial risklərdən qorunması, yoxsulluğun azaldılması və sosial ədalətin təmin olunmasına xidmət edir. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "e-Sosial" portalı, proaktiv xidmət mexanizmləri və DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi (DOST RİM) Böyük Britaniyanın nüfuzlu "Global Banking & Finance Review" təşkilatının keçirdiyi "Global Banking & Finance Awards" müsabiqəsində üç fərqli kateqoriya üzrə mükafatlarla təltif olunmuşdur:

- ən yaxşı rəqəmsal hökumət platforması – "e-Sosial" portalı;
- innovasiyada mükəmməllik – proaktiv xidmət mexanizmləri;
- ən yaxşı İT idarəetmə komandası – DOST RİM.

Bu nailiyyətlər Azərbaycanın sosial müdafiə sahəsində rəqəmsal transformasiyanın uğurla tətbiq olunduğunu və xidmətlərin effektivliyinin beynəlxalq səviyyədə tanındığını göstərir. Lakin uğurlarla yanaşı bir sıra problemlər də mövcuddur. Məşğulluq proqramlarının əhatə dairəsinin genişləndirilməsi, sosial-iqtisadi fərqlərin regionlararası gücləndirilməsi, qeyri-formal məşğulluğun leqallaşdırılması, inklüziv sosial müdafiə yanaşmalarının gücləndirilməsi və s. bu problemin aktuallıq kəsb etdiyini diqqətə çəkir.

Aparılan tədqiqatın əsas məqsədi Azərbaycan Respublikasında sosial müdafiə sisteminin gəlir bərabərsizliyinin azaldılmasındakı rolunu araşdırmaq, tətbiq olunan sosial müdafiə mexanizmlərinin effektivliyini qiymətləndirmək, mövcud problemləri aşkara çıxararaq onların həlli üçün təkliflər irəli sürməkdir.

Bu tədqiqatın əhəmiyyəti həm elmi, həm də praktiki baxımdan qiymətləndirilir. Elmi baxımdan, araşdırma sosial müdafiə sisteminin gəlir bərabərsizliyinin azaldılmasındakı rolunu Azərbaycan kontekstində təhlil edərək mövzuya lokal və beynəlxalq nəzəri çərçivə təqdim edir. Praktiki baxımdan isə tədqiqat sosial müdafiə siyasətinin effektivliyini qiymətləndirir, mövcud problemləri aşkara çıxarır və gələcəkdə sosial siyasət proqramlarının təkmilləşdirilməsi üçün tövsiyələr verir.

Azərbaycan nümunəsi əsasında aparılan bu tədqiqat hökumət orqanlarına, tədqiqatçılara və beynəlxalq təşkilatlara sosial müdafiə mexanizmlərinin təkmilləşdirilməsi, yoxsulluğun azaldılması və gəlir bərabərsizliyinin minimuma endirilməsi istiqamətində məlumatlı qərarlar qəbul etmək üçün əsaslı baza təqdim edir. Beləliklə, araşdırma sosial ədalətin gücləndirilməsi və dayanıqlı iqtisadi inkişafın dəstəklənməsi baxımından strateji əhəmiyyət kəsb edir.

## Sosial müdafiə anlayışı, mexanizmləri və Azərbaycan kontekstində tətbiqi

Sosial müdafiə, əhalinin sosial risklər qarşısında qorunmasını təmin edən dövlət və qeyri-dövlət tədbirlərinin məcmusudur. Bu anlayış yoxsulluq, işsizlik, xəstəlik, əlillik, yaşlılıq və digər sosial risklər zamanı insanların həyat səviyyəsini qorumağa yönəlir. Eyni zamanda, sosial müdafiə sosial ədalətin, cəmiyyətin inklüzivliyinin və dayanıqlı inkişafın təminatçısıdır (Dünya Bankı, 2023; ILO, 2022).

Beynəlxalq təcrübədə və Azərbaycanda sosial müdafiə mexanizmləri üç əsas qrupa bölünür:

1. *Sosial sığorta mexanizmləri* – işsizlik, xəstəlik və pensiya sığortaları. Burda əsas prinsip iştirakçılara müəyyən ödənişlərin edilməsi və risk baş verdikdə kompensasiya ilə təmin olunmasıdır.

2. *Sosial yardım mexanizmləri* – ünvanlı sosial yardım, əlillik müavinətləri və təcili yardım proqramları. Burda məqsəd həssas qruplara maddi dəstək vermək və yoxsulluğu azaltmaqdır.

3. *Sosial xidmətlər* – təhsil, səhiyyə, reabilitasiya və sosial inteqrasiya xidmətləri. Burda məqsəd əhalinin həyat keyfiyyətini yüksəltmək və sosial bərabərliyi təmin etməkdir.

Sosial müdafiənin *funksiyaları* əsasən aşağıdakıları əhatə edir:

- Sosial müdafiə sisteminin *maliyyə funksiyası* gəlir itkisini kompensasiya etməklə və həssas əhali qruplarına dəstək göstərməklə sosial sabitliyi təmin edir;

- *Sosial ədalət funksiyası* gəlir bərabərsizliyini azaltmaq və ictimai fərqləri yumşaltmaq məqsədini daşıyır;

- *İnkişaf funksiyası* insan kapitalına investisiya qoyuluşu, məşğulluğun artırılması və iqtisadi fəallığın stimullaşdırılması ilə cəmiyyətin dayanıqlı inkişafına xidmət edir;

- *Risklərin idarə olunması funksiyası* isə sosial risklərin və böhranların mənfi təsirlərini minimuma endirməyə yönəlmişdir.

Azərbaycan hökuməti sosial müdafiə siyasətini əhalinin həssas qruplarının qorunması, gəlir bərabərsizliyinin azaldılması və sosial ədalətin təmin olunması istiqamətində qurur. Bu siyasət müxtəlif mexanizmlər vasitəsilə həyata keçirilir və həm sosial, həm də iqtisadi dayanıqlığın gücləndirilməsinə xidmət edir (ƏƏSMN, 2024; Dünya Bankı, 2023).

1. **Ünvanlı sosial yardım proqramları.** Bu mexanizm aztəminatlı ailələrə, işsizlərə, əlilliyi olan şəxslərə və digər sosial risk qruplarına yönəldilmişdir. Məqsəd həmin qrupların minimum sosial təminatla əhatə olunması, yoxsulluğun azaldılması və onların həyat səviyyəsinin yüksəldilməsidir. Ünvanlı sosial yardım yalnız maddi dəstək vasitəsi kimi deyil, həm də sosial ədalətin reallaşdırılması üçün mühüm bir alət kimi çıxış edir.

**2. Pensiya və müavinət sistemi.** Sosial müdafiənin mühüm istiqamətlərindən biri əmək pensiyaları, minimum pensiya təminatı, əlillik və yaşlılıq müavinətləridir. Bu sistem yaşlıların, əlillərin və əmək qabiliyyətini itirmiş şəxslərin sosial müdafiəsini gücləndirməklə onların rifahının təmin olunmasına yönəlmişdir. Eyni zamanda, bu sistem sosial bərabərliyi möhkəmləndirən və əhalinin gələcək rifahına inamını gücləndirən vacib mexanizmdir.

**3. Proaktiv sosial xidmətlər və rəqəmsallaşma.** Müasir dövrdə sosial müdafiə siyasətində rəqəmsallaşma xüsusi yer tutur. Sosial müavinətlərin avtomatik təyinatı, xidmətlərin elektron platformalar üzərindən göstərilməsi və vətəndaşların əlavə müraciət zərurəti olmadan dəstəklənməsi inzibati yükü azaldır, şəffaflığı təmin edir və xidmətlərin əlçatanlığını artırır. Bu yanaşma dövlət xidmətlərinin keyfiyyətinə beynəlxalq səviyyədə də müsbət qiymət qazandırmışdır.

**4. Aktiv məşğulluq proqramları.** İşsizlik riskinə qarşı mübarizədə aktiv məşğulluq tədbirləri mühüm əhəmiyyət kəsb edir. Buraya peşə hazırlığı, ixtisasartırma kursları, işlə təminat mexanizmləri və özünüməşğulluq proqramları daxildir. Bu proqramlar əhalinin iqtisadi fəallığını artırmaqla yanaşı, qeyri-formal məşğulluğun azaldılmasına və sosial sabitliyin möhkəmləndirilməsinə xidmət edir.

**5. Sosial xidmətlərin genişləndirilməsi.** Təhsil, səhiyyə, reabilitasiya və sosial inteqrasiya xidmətlərinin keyfiyyətinin yüksəldilməsi sosial müdafiə siyasətinin əsas hədəflərindəndir. Bu xidmətlər insan kapitalına investisiya qoyuluşu hesab olunaraq uzunmüddətli perspektivdə cəmiyyətin inkişafına və sosial bərabərliyin təmin olunmasına zəmin yaradır.

**6. Regionlararası sosial ədalətin təmin edilməsi.** Sosial xidmətlərin və yardımların yalnız paytaxt və iri şəhərlərdə deyil, regionlarda da bərabər paylanması əhalinin sosial rifah səviyyəsində balansın qorunmasına xidmət edir. Bu siyasət regionlararası gəlir fərqlərinin azaldılmasına, sosial-iqtisadi inkişafın tarazlaşdırılmasına və ölkə daxilində sosial həmrəyliyin gücləndirilməsinə mühüm töhfə verir.

Beləliklə, Azərbaycan kontekstində sosial müdafiə sistemi yalnız sosial risklərin aradan qaldırılmasına deyil, həm də gəlir bərabərsizliyinin azaldılmasına, sosial ədalətin təmin olunmasına və dayanıqlı inkişafın dəstəklənməsinə xidmət edir.

## Mövcud problemlər və çağırışlar

Araşdırma zamanı media məlumatları analitik təhlil olunmuşdur. Sosial müdafiə sistemlərinin fəaliyyətində ortaya çıxan potensial problemlər müxtəlif meyarlara əsasən təsnif olunur. Analitik yanaşma bu problemləri sistemli şəkildə müəyyənləşdirməyə və həll yollarını planlaşdırmağa imkan verir. Əsas təsnifat aşağıdakı istiqamətlər üzrə aparılıb:

***İnzibati və təşkilati problemlər:***

- sosial yardım və müavinətlərin təyinatında səmərəsiz idarəetmə, bürokratik maneələr;
- proseslərin rəqəmsallaşdırılmasının gecikməsi və məlumatların tam olmaması;
- proqramların monitorinqi və qiymətləndirmə mexanizmlərinin zəifliyi.

***Maliyyə və resurs problemləri:***

- büdcə məhdudiyyətləri və resursların səmərəsiz istifadəsi;
- sosial müdafiə proqramlarının maliyyələşdirilməsində qeyri-sabitlik;
- yoxsul və həssas təbəqələr üçün nəzərdə tutulmuş maliyyə dəstəyinin yetərsizliyi.

***Sosial və demoqrafik problemlər:***

- ünvanlı sosial yardımın ünvanlı olmaması və ehtiyacı olanların yardımdan kənarda qalması;
- regionlararası gəlir fərqlərinin yüksək olması;
- qeyri-formal məşğulluq və sosial müdafiə proqramlarından kənarda qalan əhali qrupları.

***Qanunvericilik və normativ problemlər:***

- sosial müdafiə proqramlarının hüquqi tənzimlənməsində boşluqlar;
- yeni iqtisadi və sosial şəraitə uyğun qanunvericilik mexanizmlərinin çatışmazlığı.

***Beynəlxalq və qlobal risklər:***

- qlobal iqtisadi və maliyyə böhranları, pandemiyalar və təbii fəlakətlər;
- xarici donorların maliyyə dəstəyindəki dəyişikliklər və beynəlxalq təzyiqlər.

Bu problemlər sosial müdafiə sistemlərinin effektivliyinə mənfi təsir göstərir və gəlir bərabərsizliyinin azaldılması, yoxsulluğun minimuma endirilməsi və sosial ədalətin təmin olunması məqsədinə çatmaq üçün strateji tədbirlərin həyata keçirilməsini zəruri edir. Problemlərin sistemli təsnifatı, həm dövlət siyasətinin, həm də sosial proqramların təkmilləşdirilməsi üçün analitik baza təmin edir və prioritet sahələrin müəyyən olunmasına imkan yaradır.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Azərbaycan nümunəsi göstərir ki, sosial müdafiə sistemi gəlir bərabərsizliyinin azaldılmasında mühüm rol oynayır və bu sahədə əldə olunan nailiyyətlərlə yanaşı, həllini gözləyən problemlər də mövcuddur. Ünvanlı sosial yardımın əlçatanlığı, inzibati və prosedur çətinliklər, rəqəmsallaşma prosesində texniki və kadr çatışmazlıqları, maliyyə resurslarının səmərəli yönəldilməsi kimi məsələlər sosial müdafiə sisteminin effektivliyini məhdudlaşdırır.

Araşdırmanın nəticələri göstərir ki, ünvanlı sosial yardımın dəqiq hədəflənməsi, aktiv məşğulluq proqramlarının genişləndirilməsi, regionlararası sosial-iqtisadi fərqlərin azaldılması, qeyri-formal məşğulluğun leqallaşdırılması və sosial xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində atılacaq addımlar sosial müdafiə sisteminin səmərəliliyini artırmaqla yanaşı, gəlir bərabərsizliyinin azaldılmasına, yoxsulluğun minimuma endirilməsinə və sosial ədalətin təmininə mühüm töhfə verə bilər.

Tədqiqatın nəticələrinə əsaslanaraq aşağıdakı təkliflər aktuallıq kəsb edir:

- ünvanlı sosial yardımın ünvanlılığının tam təmin olunması üçün yeni qiymətləndirmə meyarlarının tətbiqi;
- aktiv məşğulluq proqramlarının əhatə dairəsinin genişləndirilməsi;
- regionlararası sosial-iqtisadi fərqlərin azaldılması üçün hədəfli proqramların gücləndirilməsi;
- qeyri-formal məşğulluğun leqallaşdırılmasına yönəlmiş təşviq mexanizmlərinin yaradılması;
- sosial xidmətlərin keyfiyyətinin yüksəldilməsi və inklüziv sosial müdafiə yanaşmalarının gücləndirilməsi.

Bu təkliflərin həyata keçirilməsi sosial müdafiə sisteminin səmərəliliyini artırmaqla, gəlir bərabərsizliyinin azaldılmasına, yoxsulluğun minimuma endirilməsinə və sosial ədalətin təmin olunmasına töhfə verə bilər.

### *İstifadə edilmiş ədəbiyyat:*

**1.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. (2024). Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2024-cü il üzrə hesabatı. Bakı: ƏƏSMN. https://sosial.gov.az

**2**. Dünya Bankı Azərbaycanın iqtisadi artım proqnozunu açıqlayıb. (t.i.). https://banco.az/az/news/dunya-banki-azerbaycanin-iqtisadi-artim-proqnozunu-aciqlayib

**3.** Sputnik.az. (2024, 9 aprel). Ünvanlı sosial yardımda problemlər. https://sputnik.az

**4.** Atkinson, A.B. (2015). Inequality: What can be done? Harvard University Press. https://www.jstor.org/stable/j.ctvjghxqh

**5.** International Labour Organization (ILO). (2022). World social protection report 2021–23. Geneva: ILO.

**6.** International Labour Organization (ILO). (2022). Annual report 2022. https://www.ilo.org/publications/annual-report-2022

**7.** United Nations. (2023). The Sustainable Development Goals report 2023: Special edition. https://unstats.un.org/sdgs/report/2023/

**8.** World Bank. (2025, April 16). Social protection overview. https://www.worldbank.org/en/topic/socialprotection/overview

**S.C.Tomayev**

*master student, Azerbaijan University of Tourism and Management*

## Social protection mechanisms and reducing income inequality: the case of Azerbaijan

### Abstract

*The article analyzes income inequality as a major socioeconomic problem at the global and local levels. It is noted that the unequal distribution of income leads to increased poverty, weakening social stability, and undermining the sustainability of economic development. Social protection systems – pensions, benefits, targeted social assistance and social services – are an important tool in reducing income inequality and protecting vulnerable groups.*

*The UN Sustainable Development Goals, as well as programs of the World Bank and ILO, strengthen international efforts in this area. The large financial resources allocated by the World Bank in recent years demonstrate that social protection serves to ensure social justice and support economic development on a global scale.*

*The Azerbaijani example shows that although social protection policy is internationally recognized for its innovative approaches such as digital transformation, proactive service mechanisms, and DOST RIM, there are problems related to administrative, financial, social, legislative, and global risks.*

*The study found that precise targeting of targeted social assistance, expansion of active employment programs, reduction of regional disparities, legalization of informal employment, and improvement of the quality of social services can play a decisive role in reducing income inequality.*

***Keywords:*** *social protection, income inequality, targeted assistance, poverty, Azerbaijan.*